AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

QƏRAR

№ 2/25

Bakı şəhəri 15 fevral 2017-ci il

AMEA-nın müxbir üzvü Akif Musayevin
70 illik yubileyi haqqında

2017-ci il iyul ayının 18-də görkəmli iqtisadçı alim, AMEA-nın müxbir üzvü, iqtisadiyyat üzrə elmlər doktoru, professor Akif Musayevin 70 yaşı tamam olur.

Akif Musayev 1971-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir. O, 1972-1975-ci illərdə SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadiyyat-Riyaziyyat İnstitutunun aspiranturasında oxumuş, 1977-ci ildə Moskva şəhərində dissertasiya müdafiə edərək iqtisadi-riyazi üsullar ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Akif Musayev 1992-ci ildə xalq təsərrüfatı və onun sahələrinin (sənaye) iqtisadiyyatı, planlaşdırılması və idarə edilməsinin təşkili ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. O, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Akif Musayev əmək fəaliyyətinə 1967-ci ildə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunun iqtisadi-riyazi modellər laboratoriyasında başlamışdır. O, 1976-1980-ci illərdə Kibernetika İnstitutunda baş elmi işçi, 1980-1991-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda baş müəllim, dosent, 1991-1999-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasında Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment kafedrasının müdiri vəzifələrində işləmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 24 sentyabr 1994-cü il tarixli 212 saylı Fərmanı ilə yaradılmış və 11 aprel 1998-ci ilə qədər fəaliyyət göstərmiş Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyasının üzvü kimi Azərbaycan Respublikasında özəl təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və dövlət qeydiyyatı mexanizminin yaradılması və həyata keçirilməsi ilə bağlı işlərin təşkilində yaxından iştirak etmişdir. 2001-ci ildən AMEA-nın İdarəetmə Sistemləri İnstitutunda Akif Fərhad oğlu Musayevin rəhbərliyi ilə "Fiskal siyasətin iqtisadi riyazi modelləşdirilməsi" laboratoriyası fəaliyyət göstərir.

Alim 1999-cu ildən Vergilər Nazirliyi Tədris Mərkəzinin, eyni zamanda 1999-2000-ci illərdə Baş Dövlət Vergi Müfəttişliyinin Analitik İnformasiya idarəsinin rəisi, 2000-2007-ci illərdə Vergilər Nazirliyi Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, 2001-2007-ci illərdə ADİU-da (Azərbaycan Dövlət İqtisad Universiteti) Vergi və Vergi qoyma kafedrasını yaratmış və ona rəhbərlik etmiş, 2007-2011-ci illərdə Azərbaycan Universitetinin rektoru vəzifəsində çalışmış, 2011-2013-cü illərdə Vergilər Nazirliyi Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi, 2013-2015-ci illərdə vergilər nazirinin vergi siyasəti məsələləri üzrə müşaviri vəzifələrində çalışmışdır.

Alim 314 elmi əsərin, o cümlədən 9 monoqrafiyanın, 15 dərslik və dərs vəsaitinin, 12 fənn proqramının, 278 elmi məqalənin, broşur, metodik göstərişin və s. müəllifidir. Onun əsərləri xarici ölkələrdə, o cümlədən ABŞ-da, Almaniyada, Rusiyada, Türkiyədə, İranda, Macarıstanda, İtaliyada, Latviyada və s. çap olunmuşdur. Akif Musayev bir çox xarici və yerli konfranslarda məruzə ilə çıxış etmiş və təşkilatçılarından olmuşdur. Akif Musayevin rəhbərliyi ilə 5 nəfər doktorluq, 34 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

Britaniyanın Kembric Beynəlxalq Bioqrafiya Mərkəzi və Amerikanın Şimali Karolina Bioqrafiya İnstitutunun idarə heyətləri tərəfindən Dünya elm və təhsilinə verdiyi töhfələrə görə Beynəlxalq Şərəf Diplomuna və Görkəmli Lider Mükafatına layiq görülmüşdür. Akif Musayev “За доблестную службу” IV dərəcəli Georgi medalı ilə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Dövlət Qulluğunda fərqlənməyə görə medalı” ilə təltif olunmuşdur. O, Gürcüstan Respublikasının “Qafqaz Universitetinin Fəxri doktoru”dur.

Akif Musayev “İpək yolu” jurnalının baş redaktoru, həmçinin ondan çox yerli və xarici ölkələrin elmi jurnallarının redaksiya heyətinin və qurumlarının üzvüdür.

Akif Musayevin tədqiqat istiqamətləri 1967-1984 – Nəqliyyat proseslərinin modelləşdirilməsi; 1984-1999 – Neft maşınqayırma və neft sənayesinin qarşılıqlı fəaliyyətinin modelləşdirilməsi; 1999-cu ildən indiyədək – Fiskal siyasətin modelləşdirilməsi sahələrini əhatə edir. Akif Musayevin elmi məqalələri və tədqiqat işləri ELSEVİER, SCİndeksli, İmpakt faktorlu jurnallarda dərc olunmuşdur.

Akif Musayev Azərbaycan Respublikasında fiskal siyasətin iqtisadiyyatı sahəsində aparılan elmi tədqiqat işlərinin təşkilatçısı və rəhbəri, vergi sisteminin normativ-hüquqi bazasının yaradılmasının əsas iştirakçıları və təşkilatçılarından biri, əhalinin vergi mədəniyyətinin formalaşması, vergilər sahəsində biliklərinin artırılması, vergi ödəyicilərinə xidmət işinin təşkili, gələcəyin vergi ödəyicilərinin formalaşdırılması və vergilər sahəsində kadrların hazırlanması, kadr hazırlığının dərslik, dərs vəsaiti, proqram və tədris-metodiki təminatının hazırlanmasının təşkilatçısı olmuşdur.

AMEA-nın müxbir üzvü Akif Fərhad oğlu Musayevin iqtisadiyyat elmi sahəsindəki xidmətlərini nəzərə alaraq və anadan olmasının 70 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın müxbir üzvü Akif Musayev AMEA-nın Fəxri Fərmanı ilə təltif edilsin.
2. AMEA-nın müxbir üzvü Akif Musayevin dövlət tərəfindən təltif edilməsi haqqında müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırılsın.
3. AMEA-nın İqtisadiyyat İnstitutuna (iqtisad üzrə elmlər doktoru Nazim İmanov) tapşırılsın ki, AMEA-nın müxbir üzvü Akif Musayevin 70 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilsin.
4. AMEA-nın Mərkəzi Elmi Kitabxanasına (tibb elmləri üzrə fəlsəfə doktoru Leyla İmanova) və "Elm" Nəşriyyatına (Hafiz Abıyev) tapşırılsın ki, AMEA-nın müxbir üzvü Akif Musayevin əsərlərinin biblioqrafik göstəricisi hazırlanıb nəşr edilsin.
5. AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinin rəisi Zülfüqar Fərzəliyevə tapşırılsın ki, AMEA-nın müxbir üzvü Akif Musayevin həyat və yaradıcılığı kütləvi informasiya vasitələrində işıqlandırılsın.
6. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ Mərkəzi APARAT